UOT 316.285
https://doi.org/10.59849/2710-0820.2026.1.100

**Məryəm Oruclu**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya şöbəsinin aparıcı elmi işçisi, t.ü.f doktoru, dosent.*
*oruclu.meryem@gmail.com*
*Azərbaycan*
*ORCID 0000-0002-4054-7313*

# MÜASİR DÜNYADA ETNİK AZLIQLAR MƏSƏLƏSİ VƏ PROBLEMLƏR

**Açar sözlər**: *"azlıq" anlayışı, etnik azlıqlar, muxtariyyətlər, etnik azlıqların hüquqları, beynəlxalq standartlar.*

## Giriş

Müasir dünyada sırf bir xalqdan, bir millətdən ibarət olan dövlət demək olar ki, mövcud deyil. Əksinə müasir dövrdə daha çox polietnik dövlətlərin mövcud olması və onların müxtəlif dövrlərdə süquta məruz qalması etnik siyasət sahəsində yeni problemlərin yaranmasına səbəb olur. Xüsusilə, polietnik dövlətlərin dağılması fonunda onların ərazisində meydana gələn yeni müstəqil dövlətlərdə yeni milli və ya etnik azlıq probleminin üzə çıxması müşahidə olunur. Digər tərəfdən müasir siyasi sistemlərin polietnik xarakterə malik olması etnik münaqişə riskini artıran başlıca amil rolunu oynayır.Buna görə də etnik azlıq məsələsinin tədqiq edilməsi və onların problemlərinin araşdırılması böyük aktuallıq kəsb edir.

Qeyd edək ki,Yer kürəsində yaşayan xalqların sayı reallıqda mövcud olan dövlətlərin sayından dəfələrlə çoxdur. Belə ki, ayrı-ayrı mənbələrdə dünyada təxminən 2000- 4000 arası xalq, millət və etnik qrupun yaşadığı göstərilir. Bəşəriyyətin yarısından çoxunu hər birinin sayı 50 milyon nəfərdən artıq olan18 xalq təşkil edir. Dünya əhalisinin 4/5 hissəsini hər birinin sayı 10 milyon nəfəri keçən təxminən 70 millət təşkil edir (Ağayev, 2006, s.15-16). Eyni zamanda sayı 1 milyon nəfərdən çox olan 260 millət Yer kürəsi əhalisinin 96 faizindən çoxunu təşkil edir. Dünya əhalisinin 3,2 faizi sayı 1 milyon nəfərə qədər olan minlərlə etnik birlikdən ibarətdir. O cümlədən sayı minə qədər olan yüzlərlə etnik qruplar mövcuddur (Orucov, 2003,s. 41). Buradan belə nəticəyə gəlmək olar ki, Yer kürəsində mövcud olan və milli dövlətə malik olmayan bu çoxsaylı azlıqlar əhalisinin əksəriyyətini bir etnos təşkil edən və dünyada faktiki olaraq mövcud olan təxminən 245 dövlətin ərazisində yaşamaq məcburiyyətindədirlər. Qeyd edək ki, bu dövlətlərdən yalnız 193-ü rəsmi olaraq tanınan dövlətlərdir. Əlbəttə ki, bu xalqların hər birinin tarixin sınaqlarından çıxmış vahid mədəniyyəti, adət-ənənəsi, dünyagörüşü, həyat tərzi, dili, ərazisi, iqtisadi əlaqələrin ümumiliyi, başqa xalqlardan fərqlənən özünəməxsus xüsusiyyətləri vardır. Onların yaşadıqları dövlətlərdə etnik, dini müxtəliflik sivil normalar əsas götürülərək tənzimlənmə prosesi həyata keçirilirsə, o zaman münasibətlərdə gərginlik yaranmır. Bunun əksi olduqda isə, yəni etnik çoxluq milli və dini ayrı-seçkilik yolunu tutarsa, mədəniyyət, elm, təhsil və digər sahələrdə azlıqların mənafeyini nəzərə almazsa, o zaman münasibətlərdə ciddi problemlər yaranır. Buna görə də azlıqlar, xüsusilə etnik azlıqlar məsələsinin araşdırılması, müasir dünyada onların qarşılaşdıqları problemlərin öyrənilməsi bu gün də aktual olaraq qalır.

**"Etnik azlıq" anlayışı**. Ümumiyyətlə, "azlıq" anlayışı ilk vaxtlar dini mahiyyətə malik olaraq 1560-1648-ci illər arasında Avropada yaşanan protestant-katolik qarşıdurması ilə meydana gəlmişdir. Əhalisinin 80 faizinin katolik olduğu Fransada bu qarşıdurmanın nəticəsi olaraq1598-ci ildə Fransa kralı IV Henri tərəfindən qəbul edilən Nant fərmanında dini azlıq hesab edilən kalvinizm və protestantlıq məzhəblərinin daşıyıcılarına geniş hüquqlar veril-

mişdir. Bu fərmanda Fransada yaşayan digər din daşıyıcılarına münasibətdə diqqətli davranmaq tələb olunurdu. O cümlədən katolik və protestant dövlətləri arasinda baş verən otuzillik müharibəyə son qoyan, 1648-ci ildə imzalanan Vestifaliya sülh sazişində də protestant vətəndaşlara aid edilən hökmlərdə azlıq hüquqlarına yer verilmişdir (Nant razılaşması, 2024).

XIX əsrdə isə azlıqların hüquqları məsələsi ilk dəfə 1814-ci ildə keçirilən Vyana konqresində müzakirə edildi. Konqresdə Alman yəhudilərinin və xüsusilə yenidən bölünən polyakların taleyi məsələsi qaldırıldı və Prussiya, Rusiya və Avstriyada yaşayan azlıqlara tolerant münasibət göstəriləcəyinə, onların hüquqlarının qorunacağına ümid edildiyi bildirildi. Lakin sonrakı proseslər göstərdi ki, nəticə olaraq nəinki deyilənlərə məhəl qoyulmadı, əksinə azlıqlara qarşı mütəşəkkil ayrı-seçkilik tətbiq edildi. Sonrakı dövrdə Krım müharibəsinin nəticəsi olaraq 1856-cı ildə keçirilən Paris konqresində Osmanlı imperiyasında yaşayan yəhudilərin və xristianların statusu məsələsinə xüsusi diqqət yetirildi. Konqresdə Britaniya nümayəndəsi Uilyam Qladston Osmanlıda yaşayan bolqarlara qarşı edilən qırğınlara beynəlxalq diqqət tələb etdi. 1878- ci ildə Berlin konqresində Ruminiyada, o cümlədən Serbiya və Bolqarıstanda yaşayan yəhudilərin statusu məsələsi gündəmə gətirildi. Rusiya xüsusilə, Osmanlı imperiyasının nəzarətində olan provaslav xristianların və slavyan xalqların hüquqlarının qorunması məsələsinə diqqət tələb etdi. Eyni zamanda azlıqlara qarşı edilən zülm və ayrı-seçkilik siyasəti medianın diqqət mərkəzində olmağa başladı. Digər tətəfdən isə Rusiyadakı yəhudilər qırğınlara etiraz olaraq təşkilatlanmağa başladılar. Beləliklə, XIX əsrdə keçirilən konqreslər azlıqların hüquqları ilə əlaqədar müzakirələr aparsalar da, bu sahədə əhəmiyyətli islahatlar keçirə bilmədilər. Yalnız istisna olaraq 1849 -cu ildə Macarıstan inqilabi parlamenti tərəfindən azlıqların hüquqları elan edildi və qüvvəyə mindi. 1867- ci ildə isə Avstriya qanunlarında da azlıqların hüquqları kodifikasiya edildi. Birinci Dünya Müharibəsindən sonra 1919-cu ildə keçirilən Paris sülh konfransında azlıqların hüquqları məsələsi yenidən gündəmə gəldi və Ali Şura tərəfindən Yeni Dövlətlər və Azlıqların Müdafiə Komitəsi yaradıldı. Burada yeni varis dövlətlər diplomatik tanınmanın ilkin şərti olaraq azlıqların hüquqlarından bəhs edən müqavilələri imzalamağa məcbur qaldılar. Belə ki, yeni dövlətlərin tanınmasına baxmayaraq, son sülh müqaviləsinin imzalanmasına qədər onların "yaradılmadıqları " barədə razılığa gəlindi. Lakin konfransda alman və polyakların hüquqları məsələsi müzakirə olunarkən Polşadakı alman azlığından fərqli olaraq, Almaniyadakı polyakların hüquqları qorunmadığından mübahisələrə səbəb oldu. Nəticədə azlıqların hüquqları üzrə müqavilələr dövlətlər tərəfindən getdikcə daha çox nəzərə alınmamağa başladı və gözlənilən nəticəni vermədi. Nəticədə Millətlər Liqasının özü kimi azlıqların hüquqları üzrə müqavilələr də bir sistem olaraq əsasən 1930-cu illərin sonunda dağıldı. Lakin bu siyasi uğursuzluğa baxmayaraq, bu müqavilələr beynəlxalq hüququn əsasını qoydular və bu prinsiplər sonradan BMT nizamnaməsinə və digər beynəlxalq insan hüquqları müqavilələrinə daxil edildilər (Azlıqların hüquqları, 2025).

Müasir dövrdə ümumiyyətlə, ictimai və humanitar elmlər sahəsində "azlıqlar"la bağlı terminlərə fərqli yanaşmalar mövcuddur. Bu baxımdan, "milli azlıqlar", "azsaylı xalqlar", "etnik qruplar", "etnik azlıqlar","etnoqrafik qruplar" xüsusi qeyd olunmalıdır. Beynəlxalq hüquqi aktlarda, BMT Konvensiyalarında "milli azlıq", "etnik azlıq"(qrup)anlayışları çox zaman adekvat kimi işlədilir. Belə ki, BMT sistemində əsaslı şəkildə qəbul edilən termin "etnik azlıqlar"(ethnic minorities) terminidir. Avropa Şurası sistemində isə bu qrup nümayəndələrini "milli azlıqlar"(national minority)adlandırırlar. BMT tərəfindən 1992-ci ildə qəbul edilmiş azlıqlar haqqında bəyannamənin birıncı maddəsi etnik azlıq olaraq etnik, dini, mədəni və linqvistik azlıqları tanıyır, lakin azlığın nə olması izah edilmir. Mülki və Siyasi Hüquqlar haqqında beynəlxalq paktın 27-ci maddəsinə əsasən qeyd edilir ki, etnik, dini və dil azlıqları öz mədəniyyətlərini, dinlərini və dillərini qoruya və ondan yararlana bilərlər, lakin etnik azlıqların kim olduğu izah edilmir .Venesiya komissiyası tərəfindən edilən izahda milli azlıqlara belə tərif verilir: insanlar qrupu, hansına ki, daxil olan insanların ümumi sayı ölkədə yaşayan qalan əhalinin sayından azdır və bu qrup dominant olan əhalidən fərqli olaraq fərqli etnik, dini və dil

kimliyinə sahibdirlər və onlar istəyirlər ki, öz mədəniyyətlərini, adət-ənənələrini, dinlərini və dillərini qorusunlar.

Qeyd edək ki, tədqiqatçılar arasında da "milli azlıq" və "etnik azlıq" terminləri bəzən eyniləşdirilir, bəzən isə fərqli mövqedən izah edilir. Bunun nəticəsində milli məsələlərlə bağlı problemlərə qeyri-obyektiv mövqedən yanaşılır, bir sıra tarixi gerçəkliklər və reallıqlar təhrif olunur. Əslində bu terminlərin düzgün izahı milli məsələlərə dair bir çox problemlərin obyektiv həlli üçün mühüm əhəmiyyət kəsb edən başlıca amildir. Məsələn, İngiltərə mədəni antropologiya məktəbi "etnik azlıq" və "milli azlıq"anlayışları arasındakı fərqləri nəzərdən qaçırır. Digər tədqiqatçılar isə bu terminləri bir-birindən fərqləndirərək onlara belə tərif verilir. Milli azlıq dedikdə, bu və ya başqa ölkədə, dövlətdə, respublikada yaşayan, ölkənin, dövlətin, respublikanın əhalisinin çoxunu təşkil edən millətdən sonra azlıqda qalanlar nəzərdə tutulur. Məsələn, Rusiyada, Ukraynada, Belarusda, Gürcüstanda, Qazaxıstanda yaşayan azərbaycanlılar bu ölkələrdə milli azlıq hesab olunur. Azərbaycanda yaşayan ruslar, ukraynalılar, beloruslar, gürcülər isə burada milli azlıqlar hesab olunurlar. Etnik azlıqlar isə ayrı-ayrı xalq və millətləri təşkil edən etnik birlikdən qopmuş, etnik proseslər zamanı xüsusi forma və məzmun kəsb etmiş ayrıca etnik qruplardan ibarət olur. Hər bir etnik azlığın öz dili, öz adət-ənənəsi və mənəvi birliyi mövcud olur. Etnik azlıq adətən müəyyən bir ərazidə kompakt halında yaşayır. Etnik azlıq üçün səciyyəvi olan bu xüsusiyyətlər onun başqa xalq və millətlərlə qaynayıb qarışmasına heç də mane olmur. Eyni zamanda etnik azlıqlar tarixən baş verən etnik proseslər nəticəsində öz keçmiş etnik əlamətlərini saxlamaqla bərabər, qonşu xalq və millətlərdən də müəyyən əlamətlər və xüsusiyyətlər əxz edə bilər.

Bəzi tədqiqatçılar etnik azlıqların təsnifatını verərək, onları 3 növə bölərək bir- birindən fərqləndirirlər: 1) xarici azlıqlar,yəni bir dövlətin ərazisində yaşayan, lakin digər dövlətin (çox vaxt qonşu dövlətin) titullu xalqı ilə etnik qohumluq təşkil edən etnik azlıqlar (məsələn, Kosovada yaşayan albanlar, Ruminiya və Slovakiyada yaşayan macarlar, Mərkəzi və Şərqi Avropada, Cənubi Tirolda, Belçikada, Danimarkada və Fransada yaşayan almanlar və s); 2) transmilli azlıqlar, yəni vətənləri bir neçə dövlətin ərazisinə düşən, lakin bu dövlətlərin heç birində titullu xalq olmayan etnik azlıqlar (məsələn, İspaniya və Fransada basklar və katalonlar); 3) yerli azlıqlar, yəni bir dövlət daxilində öz tarixi vətənlərində yaşayan, lakin titullu xalq olmayan etnik azlıqlar (məsələn, İspaniyada qallar, Fransada korsikalılar və bretonlar və s.) (Schneckener & Wolff, 2004, p.2-3).

**Etnik azlıqlarla bağlı problemlər**.Araşdırmalara görə, müasir dünyada 100-ə qədər polietnik dövlət mövcuddur ki, bu dövlətlərin hamısı sesessionist hərəkatlardan əziyyət çəkir (Кавтарадзе, 2005, с.4). Qərb tədqiqatçıları "sesessiya" anlayışı altında konkret ərazinin mənsub olduğu dövlətin tərkibindən çıxaraq suveren dövlətə çevrilməsi faktını nəzərdə tuturlar ki, bu "suverenlər " də bir qayda olaraq dünya dövlətləri tərəfindən tanınmırlar. Avropada və Cənubi Qafqazda belə "suverenlər"in mövcudluğu və çoxluğu Aİ-ni onların nizamlanması problemi üzərində düşünməyə vadar etmişdir ki, münaqişələrin"avropalaşdırılması" məhz bu zəmində təşəkkül tapmışdır (Paşayeva, 2013, s.121).

Avropa əhalisinin etnik tərkibinin müxtəlifliyi müntəzəm olaraq müxtəlif xalqlar arasında münasibətlərdə gərginlik, ziddiyyət, problem və münaqişələr doğurur. Bu münaqişələr bəzən bir neçə onillik və ya hətta yüzilliklər davam edir. Məsələn, Şimali İrlandiyada katolik irlandlarla olster protestantlar və ya Belçikada flamandrlarla vallonlar arasındakı münaqişələri göstərmək olar. Yaxud da keçmiş Yuqoslaviya ərazisində 10-15 il sonra ağır nəticələrlə sona çatan münaqişələri göstərmək olar. Qeyd edək ki, müasir dövrdə etnik münaqişələrin əksəriyyəti yaşadığı dövlətin tərkibindən çıxıb həmin ərazidə öz dövlətini yaratmaq məqsədini qarşısına qoyan separatçı qüvvələr tərəfindən baş verir. Lakin təcrübə göstərir ki, son zamanlar dünyada yekun olaraq "antiseparatist konsensus" formalaşıb. Ölkələrin əksər çoxluğu öz razılıqları olmadan, milli azlıqların tərkibində olduğu dövlətdən ayrılmaq hüququnu tanımır (Кулагин, 2006, с.36-37).

Bəzi tədqiqatçılar müasir cəmiyyətlərdə etnik qrupların müxtəlif situasiyalarda qarşılıqlı münasibətlərinin aşağıdakı təsnifatını verirlər:

1) özünün polietnik, yaxud çoxmillətli olduğunu etiraf edən dövlətdəki etnik qruplar. Bu qruplar özlərinin eyniliyini dil, din, milliyəti və yaxud irqi əsasında müəyyən edə bilər. Belə hallarda üstünlük təşkil edən, yaxud daha çoxsaylı olan millətdən fərqlənən etnik qruplar xüsusi hüquqi statusa malik ola bilər və yaxud olmaz. Adətən belə hallarda onlar azlığı təmsil edir və hakim mövqedə deyillər; 2) özünün rəsmi olaraq polietnik hesab etməyən dövlətlərdəki etnik qruplar. Məsələn, Fransa, Yaponiya, İndoneziya, Türkiyə, Portuqaliya və bir çox Afrika ölkələrində olduğu kimi. Burda etnik azlıqların regional (məsələn, Fransada korsikalılar, Böyuk Britaniyada şotlandlar), irqi (ABŞ-da qara afrikalılar), dini (İraqda şiələr) əsasları ola bilər; 3) qonşu dövlətdə yaşayan və əhalinin əksəriyyətini təşkil edən qohum etnik birliklə özlərini identifikasiya edən etnik azlıqlar (məsələn, türklər Bolqarıstanda, albanlar Yuqoslaviyada); 4) heç biri xüsusi üstünlük vəziyyətinə malik olmayan dövlətdə çoxsaylı etnik qruplar (bəzi Asiya ölkələrində və Afrikada); 5) dövlətlərarası sərhədin hər iki tərəfində yaşayan, həmsərhəd dövlətin hər birində azlıq statusu olan etnik azlıqlar (Cənubi-Şərqi Asiyanın bəzi regionlarında, Orta Şərqdə kürdlər, İspaniya və Fransada basklar, Azərbaycanda və Rusiyada ləzgilər); 6) bir ölkədən digərlərinə, xüsusilə də zəif inkişaf etmiş ölkələrdən inkişaf etmiş ölkələrə kütləvi miqrasiyanın nəticəsində meydana gələn etnik immiqrantlar və qaçqınlar (İngiltərə və Fransada afrikalılar, Almaniyada kürdlər və s.) (Ağayev, 2006, s.26-27).

Qeyd edək ki, ümumiyyətlə tarixə nəzər salsaq aydın olar ki, etnik azlıqlar məsələsinə ilk sistematik və beynəlxalq yanaşma Birinci və İkinci Balkan Müharibələrindən sonra Osmanlı imperiyasının hakimiyyəti altında olan Balkanlarda Qərb dövlətlərinin dəstəyi ilə milli dövlətlərin yaradılmasından sonra başladı. Xüsusilə, Birinci Dünya Müharibəsindən sonra yaradılan Millətlər Cəmiyyəti etnik azlıqların dil, təhsil, mədəniyyət və siyasi təmsil olunma məsələlərinə xüsusi diqqət ayırmağa başladı. Lakin Millətlər Cəmiyyəti 1919-cu il Versal müqaviləsindən sonra mandat prinsipi əsasında qalib dövlətlər arasında bölüşdürülmüş ərazilərdə müstəqillik əldə etmiş milli dövlətlərdə etnik məsələlərin siyasiləşməsinin qarşısını ala bilmədi (Winner. 2004, p.4).

Beləliklə, Birinci Dünya Müharibəsindən sonra yaranan Millətlər Cəmiyyətinin mövcudluğu dövründə milli azlıqların hüquqlarının müdafiəsi prinsipi ön planda idisə, İkinci Dünya Müharibəsindən sonra isə etnik münaqişələrə münasibət kökündən dəyişdi. Belə ki, İkinci Dünya Müharibəsindən sonra dünyanın bir-birinə tamamilə zidd və barışmaz düşmən olan iki qütbə bölünməsi etnik azlıqların hüquqlarının müdafiəsi məsələsini arxa plana atdı. Müharibədən sonra hegemon və supergüc hesab olunan ABŞ daha çox insan hüquqlarının müdafiəsini ön plana çıxardı. Soyuq müharibə dövründə hər iki qütb üçün vahid düşmənə qarşı mübarizə ön plana çıxdığına görə millətlər öz aralarındakı problemləri arxa plana atmağa məcbur oldular və ya məcbur edildilər. Məsələn, SSRİ kimi totalitar və güc əsasında qurulmüş, güclü nəzarətin mövcud olduğu cəmiyyətdə milli problemləri nəinki ön plana çıxarmaq, hətta bu problemlərdən danışmaq belə mümkün deyildi. Buna görə də soyuq müharibə dövründə kapitalizm və kommunizm kimi iki qütbə ayrılmış ölkələrdə milli azlıqların hüquqları və ya etnik ziddiyyətlər önəmli məsələlər sırasında deyildi. Xüsusilə, milli məsələnin uğurla həllindən bəhs edən kommunist ideologiyasının hökm sürdüyü SSRİ-də vahid sovet xalqının formalaşması istiqamətində güclü təbliğat aparılır və əks qütbə qarşı vahid cəbhədə birləşmək əsas məqsəd hesab olunurdu. Göründüyü kimi, soyuq müharibə dövründə bir-birinə zidd olan kommunizm və kapitalizm cəbhələrində bir- biri ilə üst-üstə düşən azsaylı məsələlərdən biri din, dil və irqi əsasda münaqişələrin qəbuledilməzliyi idi. Belə ki, rəsmi kommunist ideologiyası sinfi inqilabi mübarizəninin bütün dünyanı dəyişdirəcəyi prinsipindən çıxış edərək bütün insanların qardaşlığından və bütün dünya zəhmətkeşiərinin varlı istismarçılara qarşı birləşərək mübarizə aparmalı olduğundan bəhs edirdilər. Əks qütbün ideoloqları isə etnik münaqişələri nasizmin və faşizmin dirçəldilməsi kimi qiymətləndirərək bu cür münaqişələrin qəbul edilməzliyini əsaslandırmağa çalışırdılar.

Son zamanlar tədqiqatçıların bəziləri hesab edirlər ki, azlıqları mədəni və siyasi cəhətdən təcrid etmək cəhdləri və etnik azlıqların hüquqları ilə bağlı istənilən məğlubiyyəti gec-tez gərginliyin artmasına, daxili qeyri-sabitliyə gətirib

çıxarır və dövlətçiliyin əsaslarını sarsıdır. Lakin eyni zamanda azlıqların obyektiv olaraq separatçı əhvali-ruhiyyə mənbəyi olması ilə bağlı əsaslandırmalar və qorxular özünü doğrultmur. Belə ki, ölkə əhalisini tərkibində etnik azlıqların olması, əksinə bu dövlətin daxili siyasətinin etnokratik prinsiplərə əsaslanmaması şərti ilə onun əsaslarının möhkəmlənməsinə kömək edə bilər. Azlıqlar, xüsusilə heç bir siyasi muxtariyyəti olmayanlar dövlət institutları tərəfindən onların maraqlarının qorunmasına ehtiyac duyurlar və dövlətdə əhalinin domonant əksəriyyəti ilə münasibətlərinin tənzimlənməsində vasitəçi axtarırlar. Buna görə də onların etnik elitaları və rəhbərləri güclü dövlətdə və dövlətin əsaslarının möhkəmlənməsində maraqlıdırlar. Yalnız nüfuzlu və effektiv dövlət institutları azlıqları dəstəkləmək, onların iqtisadi maraqlarını mümkün qəsdlərdən qorumaq, azlıqların dillərin və mədəniyyətlərin rəqabətinə tab gətirmək üçün mexanizmlər yaratmaq və onların dövlətin siyasi həyatında tam iştirakına şərait yaratmaq iqtidarındadır (Тишков &Шабаев, 2011 c.159-160). Aydındır ki, yalnız vahid dövlət çərçivəsində azlıqlar münasibətlərini uğurla inkişaf etdirə, bununla da müəyyən yeni mədəni və siyasi keyfiyyət əldə edə və təkcə özlərinin rəqabət qabiliyyətini deyil, həm də dövlət təsisatlarını gücləndirə bilərlər. Lakin heç də həmişə və heç də bütün dövlətlər azlıqların hüquqlarını tanımağa çalışmır. Məsələn, bir çox Afrika dövlətləri azlıqların problemini sırf Avropa problemi hesab edirlər. Bu yanaşma ondan irəli gəlir ki, azlıqların millətçiliyi xüsusi millətçilik hesab olunur. Bununla bağlı amerikan alimi A.M. Xazanov əsas olaraq 3 təməl üzərində dayanır. Birincisi, azlıqların millətçiliyi etnik xarakter daşıyır, yəni azlıqların ideoloqları milləti vətəndaşlıqla deyil, etnik mənsubiyyətlə eyniləşdirirlər. Buradan da " etnik öz müqəddaratını təyinetmə", xalqın siyasi prosesə kollektiv şəkildə cəlb edilməsi tələbləri irəli sürülür. İkincisi, etnik azlıqların millətçiliyi gecikənlərin və yaxud uğursuzların millətçiliyidir ki, hansı ki, onlar öz dövlətlərini yarada bilməyənlərdir. Üçuncüsü, ilk növbədə etnik mövqe və statusun yüksəldilməsi ilə bağlı konkret məqsədləri olan millətçilikdir. Bu millətçilyin etnik məzmunu olmayan, lakin bir növ dövlət doktrinası və ya ideologiyası rolunu oynayan dominant xalqın millətçiliyindən əsas fərqi budur. Azlıqların millətçiliyi son nəticədə muxtariyyətçilərin millətçiliyidir ki, onun da müxtəlif, yəni mədəni, iqtisadi və siyasi variantları mövcuddur (Тишков & Шабаев, 2011, c.161-162).

Qeyd edək ki, Avropa əhalisinin etnik tərkibinin müxtəlifliyi müntəzəm olaraq müxtəlif xalqlar arasında gərginliyə səbəb olur və əksər hallarda muxtariyyətlərin yaranmasına gətirib çıxarır. Avropa ərazisində öz daxili icma qanunları ilə yaşayan muxtariyyətlər XVI əsrdən başlayaraq mövcud olub, lakin bunlar əsasən dini-mədəni muxtariyyətlər idilər. Məsələn,katolik ərazilərdə protestantlar, xristian ərazilərdə yəhudilər, müsəlman ərazilərdə xristian və yəhudilər. Müasir anlamda etnik azlıqların öz müqəddəratını təyinetmə hüququnu özündə ehtiva edən ilk muxtariyyətlər isə Birinci Dünya müharibəsindən sonra yaradılıb. 1921-ci ildə Millətlər Liqasının səyləri ilə yaradılmış Aland muxtariyyəti Avropada ilk etnik-ərazi muxtariyyəti hesab edilir. Lakin həmin dövrdə kiçik azlıqların öz hüquqlarını tələb etməsi Avropada mövcud olan hakim "milli dövlət" anlayışına zidd hesab edildiyindən bu tendensiya populyarlıq qazana bilmədi. Beləliklə, etnik azlıqların öz müqəddərtlarını təyin etməsi hüququ yalnız Iİkinci Dünya müharibəsindən sonra qəbul edilmiş BMT nizamnaməsi və 1966-cı ildə Vətəndaş və Siyasi Hüquq və Azadlıqları haqqında Beynəlxalq Paktla tanındı. İkinci Dünya Müharibəsindən sonra keçmiş müstəmləkələrin müstəqillik əldə etməsi dalğası bir şox kiçik azlıqların öz hüquqları uğrunda mübarizəyə qalxması ilə nəticələndi və bu tendensiya yeni muxtariyyətlərin yaranmasına səbəb oldu. 1948 - ci ildə İtaliyada etnik əsasda Sardiniya, Cənubi Tirol, Aosta Vadisi , Danimarkada isə Farer adalarının muxtar statusları təsdiqləndi. 1970-ci illərdən başlayaraq Avropa ölkələrində avrointeqrasiya prosesinin təsiri ilə "milli dövlət" anlayışının zəifləməyə başlaması, İspaniya və Portuqaliyada demoktatikləşmə dalğası, o cümlədən Fransa, İspaniya, İtaliya və Böyük Britaniyada desentralizasiya və federallaşma meylləri yeni muxtariyyətlərin yaranmasına səbəb oldu. Belə ki, 1973 -cü ildə Belçikada alman icması, 1976- cı ildə Portuqaliyada Azor və Madeyra adaları, 1979-cu ildə Danimarkada Qrelandiya muxtariyyət statusu aldılar. Həmçinin

İspaniyada Franko rejimindən sonra qəbul edilmiş 1978- ci il konstitusiyası ilə milli azlıqların muxtariyyət hüquqları tanınaraq, Kataloniya və Basklar ölkəsinə muxtariyyət verilib. 2003- cü ildə Avropada yaradılmış son muxtariyyət isə Fransada Korsika adası olub (Məmmədov, 2020).

**Nəticə.** Müasir dövrdə tarixi proseslər nəticəsində polietnik dövlətlərin dağılması ilə yaranan yeni müstəqil dövlətlərdə məskunlaşan etnik və ya milli azlıqların öz hüquqları uğrunda mübarizəsi əsaslı problemlərin yaranmasına səbəb oldu. Araşdırmalar göstərir ki, ümumiyyətlə, azlıq anlayışı müxtəlif tarixi dövrlərdə fərqli məna kəsb edərək fərqli anlayış kimi işlədilmişdir. Belə ki, XVI-XVII əsrlərdə azlıq anlayışı əsasən dini mahiyyət kəsb edərək xristianlığın protestant və kalvinizm məzhəblərinin daşıyıcılarına aid edilmiş və onlara müəyyən hüquqların verilməsi ilə bağlı olmuşdur. XIX əsrdə isə 1814-cü ildə keçirilən Vyana konqresindən başlayaraq həm dini, həm də etnik azlıqların hüquqlarının qorunması məsələsi ilə bağlı bir çox konqreslərdə müzakirələr keçirilməsinə baxmayaraq, bəzi istisnalar nəzərə alınmazsa, bu sahədə əhəmiyyətli islahatlar keçirmək mümkün olmamışdır. XX əsrdə isə Birinci Dünya Müharibəsindən sonra yaradılan Millətlər Cəmiyyəti etnik azlıqların dil, təhsil, mədəniyyət və siyasi təmsi olunma məsələlərinə xüsusi diqqət göstərsə də, qalib dövlətlər arasında mandat prinsipi əsasında bölüşdürülmüş ərazilərdə müstəqillik əldə etmiş dövlətlərdə etnik məsələlərin siyasiləşməsinin qarşısını ala bilmədi. Eyni zamanda Avropada XVI əsrdən başlayaraq öz daxili icma qanunları ilə yaşayan dini-mədəni muxtariyyətlər mövcud olub. Müasir anlamda etnik azlıqların hüquqlarını özündə ehtiva edən ilk etnik-ərazi muxtariyyəti 1921-ci ildə yaradılan Aland muxtariyyəti olub. Lakin bu dövrdə kiçik azlıqların öz huquqlarını tələb etməsi Avropada üstünlük təşkil edən "milli dövlət" anlayışına zidd olduğundan bu tendensiyageniş yayıla bilmədi. Yalnız İkinci Dünya Müharibəsindən sonra bir sıra beynəlxalq paktlarda etnik azlıqların öz müqəddəratını təyin etməsi hüququ öz əksini tapdı və keçmiş müstəmləkələrdə bir çox kiçik azlıqların öz hüquqları uğrunda mübarizəsi yeni muxtaryyətlərin yaranmasına səbəb odu. Digər tərəfdən dünyanın iki düşmən qütbə bölünməsi etnik azlıqların hüquqlarının qorunması məsələsini arxa plana atdı. Belə ki, soyuq müharibə dövründə kapitalizm və kommunizm kimi iki qütbə ayrılmış dünyada etnik azlıqların hüquqlarının qorunması önəmli məsələlər sırasında deyildi. Sinfi mübarizənin bütün dünyanı dəyişdirəcəyi prinsipini əsas götürən kommunist və əsasən insan hüquqlarını ön plana çəkən, etnik münaqişələri faşizmin dirçəldilmsi kimi qiymətləndirən kapitalist ideoloqları etnik azlıq məsələsində əsasən eyni mövqedən çıxış edirdilər.

Qeyd edək ki, müasir dövrdə həm humanitar elmlər sahəsində, həm də beynəlxalq hüquqi aktlarda "azlıqlar"la bağlı terminlərə fərqli yanaşmalar mövcuddur. Belə ki, bəzi tədqiqatçılar"milli azlıq" və "etnik azlıq" terminlərini bəzən eyniləşdirir və onlar arasındakı fərqlərə məhəl qoymurlar. Əslində bu terminlərin düzgün izahı milli məsələlərə dair problemlərin obyektiv həllinə ciddi təsir edə biləcək əsas amildir. Əksər tədqiqatçılar isə milli azlığı ölkə ərazisində yaşayan və ölkədə çoxluq təşkil edən millətdən sonra azlıqda qalanlar kimi xarakterizə edirlər. Etnik azlıqlar isə ayrı-ayrı xalq və millətləri təşkil edən etnik birlikdən qopmuş, etnik proseslər nəticəsində xüsusi forma və məzmun kəsb etmiş, adətən müəyyən bir ərazidə kompakt şəkildə yaşayan etnik qruplar kimi xarakterizə edilir.

## ƏDƏBİYYAT

Ağayev, İ. M.(2006). Müasir şəraitdə Azərbaycanda milli etnik proseslər. Bakı: "MBM"nəşriyyatı, 179s.

Orucov, H.(2003). Heydər Əliyev və Azərbaycanda milli siyasət. Tbilisi: "İntelekti" nəşriyyatı,182s.

Schneckener, U., Wolff,S.,(2004). Managing and Settling Ethnic Conflicts: Perspectives on Successes and Failures in Europe, Africa and Asia. London: Hurst &Company, 291p.

Wimmer, A.(2004) "Facing ethnic conflicts: Toward a new realism. Lanham (Maryland: Rowman& Littlefield publishers, 384p.

Кавтарадзе,С.(2005). Этнополитические конфликты на постсоветском пространстве. Москва: Экзамен, 224с.

Paşayeva,Q.(2013). Avropa İttifaqı və Cənubi Qafqaz münaqişələri-Bakı universitetinin xəbərləri, №3,120-131, Bakı: "Bakı Universiteti" nəşriyyatı.

Кулагин, В.(2006). Международная безопастность. Уч. пос. для вузов.Москва: Аспект Пресс, 319с.

Тишков,А., Шабаев, Ю.(2011). Этнополитология: политические функции этничности. Москва: Издательство Московского Университета, 376с.

Məmmədov,A.(2020),"Etnikliyə qayıdış" simptomu, yaxud "identikliklərin qarşıdurması"- https://stm.az.

Nant razılaşması (2024) - http s://az.wikipedia.org/wiki>Nant_FK.

Azlıqların hüquqları (2025) - https://az. wikipedia.org>wiki>Azlıqların huquqları

## Summary

**Maryam Orujlu**

### The issue and problems of ethnic minorities in the modern world

The article explains the concept of "minority" and the reasons why it initially had a religious nature. In particular, the reasons for the failure to conduct numerous discussions on the problems of both religious and ethnic minorities and the protection of their rights at congresses held at various levels in the 19th century and the failure to implement significant reforms in this area are analyzed in detail. The article extensively analyzes the reasons for the reflection of issues related to the protection of the rights of ethnic minorities in a number of international acts, especially after the Second World War, and the reasons for the relegation of this issue to the background during the Cold War. At the same time, the article extensively examines the different attitudes of researchers to the concepts of "ethnic minority" and "national minority", demonstrating a complex approach to this issue. In particular, the position of some researchers who distinguish ethnic minorities from each other and classify them is analyzed.

***Keywords:*** *concept of "minority", ethnic minorities, autonomies, rights of ethnic minorities, international standards.*

## Резюме

**Марьям Оруджлу**

### Проблемы и вопросы этнических меньшинств в современном мире

В статье раскрывается понятие «меньшинство» и причины, по которым оно изначально имело религиозный характер. В частности, подробно анализируются причины отсутствия многочисленных дискуссий по проблемам как религиозных, так и этнических меньшинств и защиты их прав на конгрессах различного уровня в XIX веке, а также отсутствие существенных реформ в этой сфере. В статье подробно анализируются причины отражения вопросов защиты прав этнических меньшинств в ряде международных актов, особенно после Второй мировой войны, и причины отхода этого вопроса на второй план в годы холодной войны. В то же время в статье подробно рассматривается различное отношение исследователей к понятиям «этническое меньшинство» и «национальное меньшинство», демонстрируя комплексный подход к данному вопросу. В частности, анализируется позиция некоторых исследователей, различающих этнические меньшинства и классифицирующих их.

***Ключевые слова:*** *понятие «меньшинство», национальные меньшинства, автономии, права национальных меньшинств, международные стандарты.*